**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2021-ci il üçün xərclər smetasının 222920 – "İstehlak yönlü müxtəlif xidmətlər" maddəsi üzrə iş və xidmətlərin satın alınması məqsədilə**

***KOTİROVKA SORĞUSU ELAN EDİLİR***

Kotirovka sorğusu 2 lot üzrə keçiriləcək.

Lot 1. Sənədlərin cildlənməsi və tikilməsi işlərinin satın alınması;

Lot 2. Yanğınsöndürən balonların tozşəkilli quru kimyəvi maddə ilə doldurulması üzrə xidmətlərin satın alınması.

Kotirovka sorğusunda "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən satınalma prosedurunda iştirakı qadağan olunan hüquqi və fiziki şəxslər istisna olmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 21 dekabr tarixli qərarına uyğun olaraq iri sahibkarlıq subyekti olmayan istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi iddiaçı kimi iştirak edə bilərlər.

İddiaçılar "Kotirovka sorğusunun şərtlər toplusu"nu Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 314) ünvanından əldə edə bilərlər (əlaqələndirici şəxs Şahin Sadıqlı, telefon: (012) 377-10-70, daxili: 22-64). Təkliflər 2021-ci il sentyabr ayının 06-sı saat 18:00-dək qəbul edilir. Təklif zərfləri 2021-ci il sentyabr ayının 07-si saat 10:00-da yuxarıda qeyd olunan ünvanda 516-cı otaqda açılacaqdır.

**Tender komissiyası**